

*Nizami MURADOĞLU*
*Filologiya üzrə fəlsəfə doktoru*

# NƏRİMAN HƏSƏNZADƏ POEZİYASINA BİR BAXIŞ

**Bu gün Azərbaycan ədəbiyyatının ustad şairlərindən biri haqqında söhbət açmaq istəyirəm. Bu ustad şair özünün mülayim-şirin danışığı, səmimi rəftarı, qayğıkeş münasibəti ilə onu tanıyanların da, tanımayıb radio-televiziya verilişlərindən görüb eşidənlərin də yaddaşına həkk olub sağlığında yaddaşlarda heykəlləşən ağsaçlı, nurani-pirani Nəriman Həsənzadədir. Nəriman Həsənzadə 60-cı illərdə ədəbiyyata gələn nəslin sırasında özünəməxsus yeri olan şairlərimizdəndir. 70-ci illərin ortalarında o vaxtın tələbə gəncləri-bizlər Bəxtiyar Vahabzadə, Məmməd Araz, Söhrab Tahir, Fikrət Qoca kimi Nəriman həsənzadənin də şeirlərini əzbərləyir, məclislərdə, şeir gecələrində deyir, onlardan öyrənirdik. Yaxşı yadımdadır, Nəriman Həsənzadənin məhəbbət şeirləri dildən-dilə gəzirdi, elə indi də o gözəl ruhlu, bədii siqləti ilə seçilən şeirlər dilimizin əzbəridir.**

**Məhəbbət nə deyim bu ülvi ada,
Hamıya bir gözlə baxmayır o da.
Birinə ömür-gün yoldaşı verir,
Başqa birisinə göz yaşı verir.**

Məhəbbət dünyasının bu qədər həm fəlsəfi anlamı, həm də gerçəkliklə ifadəsi ancaq və ancaq Nəriman Həsənzadə kimi böyük, filosof şairə məxsus ola bilər. Nəriman Həsənzadənin sevgi şeirlərinin baş qəhrəmanı qadındır-gözəl qadın. Qadın anadır, qadın sevgilidir, qadın incə, mədəni, saf, çiçək qədər lətafətli bir məxluqdur ki, bütün sevgisini, varlığını, mənəviyyatını sevdiyi ər kişiyə mükafat olaraq fəda eyləyir.

**O ən müqəddəsdir, ən mədənidir,
Bəşər nəslimizə o həyat verir.
Qadının sərvəti öz bədənidir,
Onu da kişiyə mükafat verir.**

Şairin sevdiyi qadın öz həyat yoldaşı Sara xanım idi. Sara xanımın vaxtsız vəfatından sonra şair onsuz keçirdiyi anlarda həmişə onu xatırlayır. Qəbirstanlıqda Sara xanımın məzarının önündə xəyala dalan, onun daş şəklini öpüb-oxşayan şair "Daş ana" şeirində öz sevgisini, duyğularını, həsrətini, acısını oxucuya belə çatdırır:

**Mən bu daş saçlara sığal çəkmişəm,
Nə qədər öpmüşəm bu daş üzündən.
Bu daş dodağından, bu daş gözündən,
Arı pətəyindən mən bal çəkmişəm.**

Şairə elə gəlir ki, öz həyat yoldaşını itirəndən sonra sanki dünya boşalıbdı. Bu boşluq onun qəlbini sıxır, vəfasız dünyada yaşamaq əzaba çevrilir, ona elə gəlir ki, "qadınsız kişi yetim uşaq" kimi tək-tənha və kimsəsiz olur:

**Yetim bir uşaqdı kişi qadınsız,
Mən bir uşaq dedim tək uşaq olmur.
Zaman qorxuludu, ömür vəfasız,
Dünyada tək qalıb yaşamaq olmur.**

"Qayıt" şeirində Nəriman Həsənzadə Sara xanımın şairin "Bir insan ömrünü girov qoymuşam, bir şair ömrünü yaşatmaq üçün" beytinə etdiyi dəyişikliyi epiqraf kimi veribdir. Sara xanım düzəlişində verilən epiqraf belədir:

**"Bir qadın ömrünü girov qoymuşam,
Bir şair ömrünü yaşatmaq üçün".**

Göründüyü kimi doğrudan da öz həyat yoldaşının bütün istəklərini yerinə yetirən Sara xanım öz ömrünü nəinki girov qoydu, bəlkə bir az da vaxtsız getməsi ilə öz ömründən şairin ömrünə Uca Tanrıdan pay dilədi. Bunu Allah bilər, amma, bu da həqiqətdir ki, şair Sara xanımın vəfatından sonra onun yoxluğunu hər dəqiqə, hər an hiss edərək yaşayır, onun xəyalı ilə yaşayır.

**Tək çəkə bilmirəm can əzabını,
Sənsiz ürəyimi əzir ayrılıq.
Mən zəngi basanda sən aç qapını,
Bəxtmə çıxıbsan, qarşıma sən çıx.**

Şair arzulayır ki, həyat yoldaşı qayıtsın, öz səliqə-sahmanı ilə evini bəzəsin. Dadlı xörəklər bişirsin. O gedən gündən şairin ağzının dadı da gedibdir, yediyi-içdiyi canına sinmir. Qohumlar, tanışlar da sanki yadlaşıblar, qələm də, ilham da sanki şairdən üz döndəribdi. Şair öz evində özünü yad kimi hiss edir:

**Qoşa hacıleylək yuvası olur,
Heç qaranquşu da tək qoymur həyat.
Bütün canlıların dünyası olur,-
Sən mənim dünyamsan, dünyama qayıt.**

Şair sevə-sevə itirdiyi insanların həsrəti ilə yaşayaraq, həm də onların portretini yaratmağa çalışır. Yeddi il ayrılıqdan sonra həyat yoldaşı Sara xanımı xatırlayarkən şair özünü qınayır, ürəyi nalə çəkib ağlayır. Sevdiyi qadının sürmə çəkdiyi gözlərinə onu son mənzilə yola salarkən torpaq ələməsi şairin dərdinə, nisgilinə çevrilibdir. Xalqımızda olan adət-ənənəyə görə ölən adamı dəfn edərkən onu gözlərinin üstünə bir çimdik torpaq qoyarlar ki, gözü bu dünyada qalmasın. Sara xanımın gözü bu dünyada qalmasa da, şairin özü narahatdır:

**Ürək nalə çəkir bir şeyə görə,
Bilmirəm heç necə gətirim dilə.
Sən sürmə çəkdiyin qara gözlərə,
Mən torpaq ələdim öz əllərimlə.**

Şairin ölümün gətirdiyi ayrılıqlar ilə bağlı yazdığı "Əbədiyyət" şeiri Azərbaycan Xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin həyat yoldaşı, görkəmli oftomoloq alim Zərifə xanım Əliyevanın xatirəsinə həsr edilibdir. Vətəndən uzaqda dəfn edilən Zərifə xanımın məzarı beşiyinin yırğalandığı doğma ocaqdan aralı düşübdü. Dövrün tələbinə görə Zərifə xanımın qürbətdə dəfn olunması bir hüzn gətiribdi:

**Budur təbiətin sonu, əzəli,
İtir gör insanın güzarı harda?
Yatır eldən uzaq bir el gözəli,
Beşiyi hardadı, məzarı harda?!**

Bu dərd Zərifə xanımın həyat yoldaşı Heydər Əliyevi sarsıdır. Heydər Əliyev mərd, mübariz bir adam, bir lider idi. Şair onun əyilməz başının Zərifə xanımın məzarı önündə əyildiyini görərkən bu eşqin gücünə inanır. İnanır ki, mərd, məğrur Heydər Əliyev üçün dünyada Zərifə xanımdan əziz ikinci bir varlıq yoxdur. Şair inanır ki, belə mərd, mübariz insanın baş əyəcəyi digər müqəddəs məkan doğma torpaq, ana Vətəndir:

**Yanında olmadım, ağır günündə,
Qəminə şərikəm, sonsuzdur o qəm!
Yalnız eşq önündə, torpaq önündə
Əyilən o başa mən baş əyirəm.**

Şairin sözünün qüdrəti ondadır ki, kiçik detallar ilə böyük xarakterlər yarada bilir. Heydər Əliyevin başının "yalnız eşq önündə, torpaq önündə" əyildiyi ifadəsi ilə Ümummilli Liderin təbiətində olan yenilməzlik, cəsarət, hökmdar əzəməti canlandırılır. Bu kimi



keyfiyyətlərə şairin "Mir Cəlal misal çəkərdi", "Qaçdıq qara saçdan ağ saça qədər", "Burjua şairi" və s. şeirlərində də rast gəlirik. "Mir Cəlal misal çəkərdi" şeirində Nəriman Həsənzadə səhvə yol verəndə öz müəlliminin onun əvəzindən dərd çəkdiyini elə boyalarla təsvir edib ki, bir anlığa Mir Cəlal müəllimin surəti insanın gözləri qarşısında canlanır. Mir Cəlal müəllimin tələbələrə ata qayğısı ilə yanaşdığı haqqında çox yazılıb, çox deyilibdi. Amma onun öz tələbəsinin səhvi ucbatından dərd çəkməyini işıqlandırmaq müəllimin xarakterini aydınlatmaqdır ki, şair bu işin öhdəsindən ləyaqətlə gəlibdi:

**"Hal əhli" kef eləyəndə,
Özünü məhv eləyəndə.
Nəriman səhv eləyəndə,
Dərdi Mir Cəlal çəkərdi.**

"Burjua şairi" şeiri "Yerə enməm də, səma şairiyəm" deyən Hüseyn Cavidə həsr edilmişdir. Dövrün ictimai-siyasi xarakterini bədii boyalarla təsvir edən şair böyük sənətkar Hüseyn Caviddən sonra sözün qiymətdən düşdüyünü, sözün şərə qaldığını göstərir. Cavidin ölümüylə ölümsüzlük qazandığını onun sözün bütövlüyündə görən Nəriman Həsənzadə məhz sözdə sağlamlıq arzulayır:

**Cavid gedən gündən söz şərə qaldı,
Caviddən Cavidə MƏQBƏRƏ qaldı.**

Şeirin son misralarında bir təəssüf xatirəsi də sezilməkdədir. Cavid kimi dahi sənətkarını itirən keçmiş dövlət başçısı Mir Cəfərin peşimançılığı "daldan atılan daşa" bənzəyir:

**Mir Cəfər dedi ki, məni dörd bölün,
İnandım, aldandım deyilən sözə.
Tutduran tutdurdu onu da bir gün,
"Hakim"lə "məhkum"u qoydu üz-üzə.**

Xalqda bir misal var, deyərlər, "inanma-aldanma". Bir də deyərlər ki, "nə tökərsən aşına, o çıxar qaşığına". Bu anlamda şair Nəriman Həsənzadənin təlqin etdiyi fikir dərin mənalı və məzmunludur.

Şairin xarakter yaradıcılığı "Qaçdıq qara saçdan ağ saça qədər" şeirində də aydın sezilir. Məmməd Arazın 70 illiyi münasibətilə yazılmış bu şeirdə iki şairin gənclik illəri xatırlanır. Qar, yağış altında qaça-qaça illəri yola salan şairlərin qara saçlarını ağ saçlar əvəzləyir, dünyanın vəfasızlığından şikayətlənsələr də, yenə də dünyanı sevirlər. İki sahilli Vətənin o tayını, bu tayını sevən şairlərin Araz dərdi var, bu dərd eyni zamanda onları birləşdirir:

**Ürək o sahildə, bu sahildədir,
Araza qovuşdum Məmməd Arazla.
Bu dünya "nə sənin, nə mənim", - deyir,
Sevir bu dünyanı bu etirazla.**

Arazdan söhbət düşmüşkən qeyd edək ki, şairin cənub mövzusunda yazdığı çoxlu şeirlər var ki, bunlar da ayrılıqda təhlil olunmalıdır. Burada Azərbaycan Müstəqillik qazanandan sonra şairin Tehranda ölkəmizin səfirliyi önündə üç rəngli bayrağımızı gördüyü an qəlbindən keçən duyğulardan bir bənd verməklə kifayətlənmək istəyirik:

**Səni qaldıranacan
Can verdik, nə qədər can.
Məzar-məzar gətirdik,
Səngər-səngər ötürdük.**

Sonda şairin yaradıcılığında folklora münasibət haqqında bir neçə söz demək istərdim. Şairin yaradıcılığı xalq yaradıcılığı ilə qarşılıqlı əlaqəlidir. Şair xalq yaradıcılığı bulağından qidalandığı kim özünün yaratdığı bədii ifadələrlə də folklorumuza yeni-yeni aforizm səviyyəli deyimlər gətirmişdir. Onlardan bir neçəsini təqdim edirik:

**Bu dünya nərdivandı,-
Qalxanda mehribandı,
Enəndə yamandı.
Daim yaraşıqdı torpağa insan,-
Burda məzarda da, sağlığında da.
Düyün var. hələ də açan olmayıb,
Dünya günahkardı deyən görmədim.
Suyu - axıracan içən olmayıb,
Çörəyi - doyunca yeyən görmədim.
Babamın yadigar bir duası var;
Səngər nəyə gərək döyüş olmasa.**

Təbii ki, biz burada Nəriman Həsənzadənin poeziyasını bütünlüklə təhlil etmək fikrində deyilik. Şairin yaradıcılığında cəmiyyəti narahat edən məsələlər, xalqımızın taleyi ilə bağlı yazılmış çoxlu digər əsərlər də vardır. Şairin poemaları, dram əsərləri, publisist yazıları onun hərtərəfli yaradıcılığının müxtəlif istiqamətlərdə araşdırılmasına imkan verən böyük bir külliyyatdır. Mən onun şeirlərində əks olunan mövzuların bir qisminə öz münasibətimi bildirməyə çalışdım.